# 21 Mart–İrqi Ayrı-seçkiliyin ləğv Edilməsi Uğrunda Beynəlxalq Mübarizə Günüdür

İrqi ayrı-seçkilik (diskriminasiya) xalqların formalaşmağa başladığı qədim dövrdən mövcud olmuşdur. İşğalçı və istismarçı rejimlər başqa xalqların ərazilərinin işğalına və əhalinin istismarına, onların qula çevrilməsinə haqq qazandırmaq üçün tarix boyu irqi, milli, sonralar dini fərqlərdən məharətlə istifadə etmişlər. Etnik hökmranlıq nəticəsində irqi-ayrıseçkilik əhalinin müəyyən qrupunun hüquq və azadlıqlarının məhdudlaşdırılmasına və onlardan məhrum edilməsinə gətirib çıxarır. İrqi ayrı-seçkilikdə yarlanan həmişə hakim sinif,itirən isə sadə xalq olmuşdur.

Diskriminasiyanın bir növü də aparteiddir. Aparteid yerli əhalinin birbirilə əlaqəsini kəsmək məqsədi ilə onların müstəmləkəçilər tərəfindən insan həyatı üçün yararsız ərazilərə köçürülməsidir. Həyat üçün əlverişli yerlərə isə bu zaman işğalçılar yerləşmişdir.

Aparteid siyasəti uzun müddət Amerika Birləşmiş Ştatlarında yerli hindulara qarşı tətbiq olunmuş nəticədə 13 milyondan artıq hindu məhv edilmişdir. Avropalılar Afrika qitəsinin təbii sərvətlərlə zəngin, unikal təbiəti olan ərazilərini ələ keçirdikdən sonra yerli əhaliyə qarşı aparteid siyasəti aparmış, milyonlarla zənci Amerika qitəsinə aparılaraq qula çevrilmiş və ya məhv edilmişdir.

Aparteid siyasətinin əsasında rasizim (rasa irq deməkdir) insan irqlərinin qeyri-bərabərliyi ideyası dayanır. Bu ideyaya görə insanlar "tam dəyərli" və "natamam dəyərli" kimi qiymətləndirilir.

Diskriminasiyanın insanlığa sığmayan forması hər hansı bir millətin yararsız, dəyərsiz və düşmən kimi elan olunaraq məhv edilməsidir ki, bu da soyqırım, genosid və holokost adlanır.

XX əsrdə dünyanı yenidən bölüşdürmək üçün milli ehtiraslar bir daha coşdurulmuşdur.

Almaniyada faşizm rasizm ideyaları ilə silahlanaraq dünyadakı digər xalqları natamam dəyərli elan edərək hakimiyyətə gəlmiş, bəşəriyyəti dərin fəlakətə sürükləmişdir. Rasizm ideyası ilə silahlanmış faşistlər ikinci dünya müharibəsində 50 milyondan artıq insanın məhvinə səbəb olmuşlar. Faşistlərin planında yəhudiləri və qaraçıları tamamilə məhv etmək, digər xalqları qula çevirmək əsas yer tuturdu.

Çox təəssüf ki, dünya ictimaiyyəti ikinci dünya müharibəsindən lazımi dərs almamışdır. Bu gün ermənilər dünyanın gözü qarşısında faşistlərin rasizm ideyasını azərbaycanlılara qarşı həyata keçirirlər. Faşist Almaniyasının rasizmin həyata keçirilməsinə rəhbərlik edən nümayəndələri cəzalarına çatsalar da erməni faşistlərinin Ermənistan adlı qədim Azərbaycan torpağında, Dağlıq Qarabağda və ətraf rayonlarda rasizmin həyata keçirilməsinə rəhbərlik edən şəxsləri Ermənistan adlı terrorçu dövlətin başında durur. Bu rasistlər mötəbər beynəlxalq tribunalara yol tapır, dünyanın aparıcı dövlətlərinin başçılar ilə bir masa arxasında əyləşirlər.

Son vaxtlar dünyanın bir sıra antibəşəri qüvvələri tərəfindən müsəlmanlara qarşı rasist təfəkkürün formalaşmasına cəhd edilir. Bu da yaxın və orta şərqdə yüz minlərlə insanın qanının tökülməsinə, yurd-yuvasından didərgin düşməsinə, səfalət içərisində ömür sürməsinə səbəb olur.

XX əsrdə Birləşmiş Millətlər Təşkilatı dünyada irqi ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması üçün bir sıra tədbirlər görmüşdür. 1966-cı ilin oktyabr ayının 26-da Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin XXI sessiyası İrqi Ayrı-seçkiliyə Qarşı Beynəlxalq Mübarizə Günü təsis etdi. Baş Məclis bütün dövlətlərə müraciət edərək hər il martın 21-dən başlayaraq rasizmə və diskriminasiyaya qarşı mübarizə aparan xalqlarla həmrəylik həftəsi keçirməyə çağırdı. Ancaq zaman göstərdi ki, Birləşmiş Millətlər Təşkilatının sadəcə çağırışları diskriminasiyanı özünə bayrağ etmiş rasist dövlətlərə, o cümlədən Ermənistana heç bir təsir göstərmir. Əgər belə olmasaydı Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qeyd şərtsiz çıxmaq barədə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələri yerinə yetirərdi.

**Qüdrət SƏMƏDOV.**

# Qəbələ Xalq Teatrının dünənì və bu günü

Azərbaycan SSR Nazirlər Sovetinin 25 iyul 1962-ci il tarixli qərarına əsasən Qəbələdə (əvvəlki Qutqaşın) Cəlil Məmmədquluzadə adına Xalq Teatrı açılmışdır. Rayon mədəniyyət evində fəaliyyət göstərən dram kollektivinin xalq teatrına çevrilməsində o vaxtki Teatr İnstitutunun məzunu, rayon mədəniyyət şöbəsinin müdiri mərhum Şirin Abdullayevin böyük xidmətləri olmuşdur. Həmin dövrdə həvəskar aktyorlar Pəricahan Abdullayeva, Kamal Osmanov, Məhəmmədiyyə İskəndərov, Əmrah Səlimov, Sirac Gəncimov, Mahiyyə Hacıyeva, Əsmayə Osmanova, Firuzə Mikayılova, Səməd Hüseynov, Əhməd Bəkirov və başqaları səhnə sənətinin vurğunu olmuşlar.

1964-cü ildə keçirilən respublika baxışında Qəbələ (Qutqaşın) Xalq Teatrı Hüseyn Cavidin "Ana" faciəsinə və Qeybulla Rəsulovun "Rəhmə gəl, mələyim" komediyasına görə birinci dərəcəli diploma layiq görülmüşdür. 1967-ci ildə keçirilən Ümumittifaq özfəaliyyət incəsənəti festivalında xalq teatrı laureat adını almış, gümüş medalla təltif edilmişdir. Aktyorlardan Tamella Cəfərova, Sirac Gəncimov, Kamal Osmanov, rejissor Şirin Abdullayev, rəssam Kərim Səlimov Ümumittifaq və respublika festivallarının qızıl medallarını almış və birinci dərəcəli diplomla təltif edilmişlər.

Teatr Azərbaycan, rus və xarici ölkələrin dramaturqlarının əsərlərini cəsarətlə və uğurla tamaşaya qoymuşdur. Teatrın repertuarında Cəfər Cabbarlının yaradıcılığı mühüm yer tutmuşdur. Ədibin əksər əsərləri, o cümlədən "Solğun çiçəklər", "Aydın", "Oqtay Eloğlu", "Yaşar", "Sevil", pyesləri teatrda səhnə təcəssümünü tapmış, uzun müddət repertuardan düşməmişdir. Tamaşalarda dekorasiya, işıq, əlbisə, qrim işlərinin həllinə respublikanın yaradıcı təçkilatları yaxından köməklik göstərmişdir. İllər bir-birini əvəz etdikcə, teatrın həvəskar kollektivləri təhsil almış, peşəkar aktyor nəsli ilə zənginləşmişdir. Onlardan Eldəniz Manafovun, Təmi Hacıyevin, Tamella Cəfərovanın, Alimə Rəhimovanın, Almas Məsimovanın, Mədinə Şöyübovanın, Malik Alcanovun, Sadəddin Abdullayevin və digərlərinin adları teatrın yaradıcılıq salnaməsinə əbədi həkk olunmuşdur. Teatrın repertuarının ana xəttini və mündərəcəsini dünya klassiklərinin görkəmli nümayəndələri ilə yanaşı Azərbaycan dramaturgiyasının məşhur simaları olan Cəfər Cabbarlının, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Sabit Rəhmanın, Səid Rüstəmovun, Salam Qədirzadənin, Süleyman Ələsgərovun, Altay Məmmədovun iri həcmli əsərləri, eləcə də digər müəlliflərin birpərdəli pyesləri təşkil etmişdir.

Hazırda Qəbələ Mədəniyyət Mərkəzində fəaliyyət göstərən xalq teatrı İ. Qutqaşınlının adını daşıyır. Teatrda birpərdəli pyeslərlə yanaşı klassik əsərlər də səhnə təcəssümünü tapır. Son illərdə Mirzə Fətəli Axundzadənin "Hekayəti Müsyo Jordan Həkimi Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur" komediyasına, İ. Qutqaşınlının "Rəşid Bəy və Səadət xanım" povestinə və Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır" əsərinə quruluş verilmişdir. Uğurlu səhnə həllini və rejissor yozumunu tapan əsərlərin əsasında nümayiş olunan tamaşalar tamaşaçılar tərəfindən böyük rəğbət hissi və maraqla qarşılanmışdır. "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" ölkə başçısı cənab İlham Əliyev tərəfindən imzalanan 19 fevral 2007-ci il tarixli Sərəncam incəsənətin estetik, canlı və kollektiv növü olan teatrların tərəqqisinə və teatr sənətkarlarının yaradıcılıq imkanlarının genişləndirilməsinə vüsət vermişdir. Hal-hazırda teatrda Kamal Nemətin "Təzə xadimə" birpərdəli pyesi asasında eyniadlı tamaşanın son məşqləri aparılır. Sevindirici haldır ki, teatrın yaradıcı heyətinin sıraları günü-gündən artır. Hazırda teatrda gənc aktyorlardan Xəyal Gəncimov, Elşən Salehov, Afət Əliyeva, Şahanə Vəlizadə, Tural Məsimov, Aygün Məcnunzadə, Firuzə Qayıblı, Günel Vahıbova və s. yüksək uğurla çıxış edirlər.

Hal-hazırda xalq teatrına quruluşçu rejissor kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu Şəbnəm Kamallı rəhbərlik edir. Teatrın rəssamı Malik Ağayevdir. Seçilmiş əsərlərin səhnə həllinin daha dolğun və peşəkar səviyyədə aparılması üçün kollektivin hər bir üzvü fəallıqla çalışır. Teatrın fəaliyyətinin daha da artırılması və yeni nailiyyətlərin əldə olunması üçün bu sahədə aparılan işlər uğurla davam etdiriləcəkdir.

**Anar RÜSTƏMLİ,**
**Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin məsləhətçisi.**

# "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi

Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 14 mart 2015-ci il tarixdə Qəbələ şəhər 2 saylı tam orta məktəbdə Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, onların fiziki hazırlıqlarının artırılmasında, ordu sıralarına hazırlanmasında mühüm rol oynayan "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi keçirilmişdir.



Yarışın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək gənc şahinləri salamlamış və "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsədin məktəblilər arasında aparılan hərbi vətənpərvərlik tərbiyəsi işini daha da gücləndirməkdən, orta məktəb şagirdlərinin hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlığını inkişaf etdirməkdən ibarət olduğunu bildirdi. F. Soltanov qeyd etdi ki, "Şahin" hərbi-idman oyunu üzrə məktəbdaxili seçmə yarışlar artıq yekunlanmışdır, bu gün oyunların ikinci mərhələsi olan rayon birinciliyi yarışıdır və hər bir komandaya bu mərhələdə uğurlar arzulayıram.

Rayonun tam orta məktəblərinin VIII-X sinif şagirdlərindən ibarət 25 komandanın iştirak etdiyi yarış gərgin idman mübarizəsi şəraitində keçmişdir. Yarışın əsasnaməsinə uyğun olaraq sıra hazırlığı mərhələsi keçirilmiş, daha sonra komandalar estafet mərhələsində mübarizələrini davam etdirmişlər.

Yarışın yekun nəticəsinə əsasən Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası I yeri, Zarağan kənd 2 saylı tam orta məktəbin komandası II yeri və Qəbələ şəhər 3 saylı tam orta məktəbin komandası III yeri tutmuşdur.

Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**M. SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**